**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 245/1** **11 oktyabr 2013-cü il**

**“Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar”ın və “Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin Əsasnaməsi”nin yeni layihələri barədə**

Auditor xidmətinin keyfiyyətinə nəzarətin yaxşılaşdırılması və bu sahədə beynəlxalq təcrübənin nailiyyətlərini öyrənib tətbiq olunması üçün müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək, habelə Palaata Şurasının 2013-cü il 27 avqust tarixli 244/2 saylı qərarına uyğun olaraq Keyfiyyətə nəzarət Komitəsi (sədr İ.Bayramov) tərəfindən hazırlanmış “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar”ın və “Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin Əsasnaməsi”nin yeni layihələrini müzakirə edərək, Auditorlar Palatası Şurası

**QƏRARA ALIR:**

1. “Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin Əsasnaməsi” təsdiq edilsin (əlavə olunur).
2. “Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Qaydalar” təsdiq edilsin (əlavə olunur).
3. Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinə (sədr İ.Bayramov) tapşırılsın ki, həmin Əsasnamə və Qaydalardan irəli gələn vəzifələrin icrası təmin edilsin.
4. Auditorlar Palatası Şurasının 2008-ci il 4 fevral tarixli 190/2 saylı qərarı ilə təsdiq edilmiş “Auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə” və Auditorlar Palatası Şurasının 2010-cu il 5 avqust tarixli 201/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinin Əsasnamə” qüvvədən düşmüş hesab edilsin.
5. Bu qərarın və təsdiq edilmiş Əsasnamə və Qaydaların mətni Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**